**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# ATİB ofisində DEİK heyəti ilə görüş keçirildi

**No: 09/16/95**
**01.04.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) ofisində Türkiyə Xarici İqtisadi Əlaqələr Şurası (DEİK) heyəti və ATİB üzvlərinin görüşü keçirildi. Görüşün keçirilməsində məqsəd Azərbaycana investisiya yatırmaq istəyən Türkiyəli iş adamlarına ölkənin iqtisadi mühiti barədə məlumat vermək idi.

Görüşü giriş sözü ilə açan ATİB İdarə Heyəti sədrinin müavini Cemal Yangın ATİB-in ciddi profesinal strukturu haqqında məlumat verərək qeyd etdi ki, təşkilat yalnız iki ölkə arasındakı əlaqələrin deyil, iki ölkənin üçüncü ölkədə də tanıdılması istiqamətində fəaliyyət göstərir: "ATİB-in ən böyük layihələrindən biri TAR (Türkiyə, Azərbaycan, Rusiya) layihəsidir. Bundan başqa, hazırda ən çox diqqət yetirdiyimiz məsələ ATAF US (Azərbaycan Türkiyə Amerika Fondu) və UBCCE (Qara Dəniz və Xəzər Dənizi Sahibkarlar Konfederasiyaları Birliyi) ilə bağlı çalışmalardır."

DEİK tərkibində fəaliyyət göstərən Türkiyə Azərbaycan İş Şurasının sədri Cengiz Gül mütəmadi olaraq ATİB vasitəsi ilə Azərbaycandakı iqtisadi mühit haqqında dolğun məlumatlar əldə etdiyini bildirdi. C.Gül təmsil etdiyi Təşkilatın Azərbaycanın regionlarda iş qurmaq niyyətini xüsusi ilə vurğuladı.

Cengiz Gül ölkəmizə hazırkı səfəri zamanı Lənkəran ziyarəti haqqında danışdı: "Azərbaycandakı əlverişli iqlim şərtlərinin kənd təsərrüfatı sahəsinə investisiya yatırılması üçün çox yaxşı imkanlar yaratdığını düşünürəm. Təkcə Lənkəranda yetişən bitkilər Türkiyənin 3 bölgəsində - Orta Anadolu, Aralıq və Egey dənizi bölgəsi - yetişən bitkiləri əhatə edir. Bir bölgədə üzüm, banan, zeytun, çay, tütün kimi məhsulların yetişməsi çox yüksək göstəricidir. Amma bu fürsətlərdən istifadə etmək üçün kifayət qədər səy göstərilmir."

C.Gül ölkələrimiz arasındakı iqtisadi əlaqələrin Türkiyənin digər ölkələrlə olan əlaqələrindən fərqli olmasını arzuladığını ifadə etdi: "Azərbaycanla olan əlaqələrin fərdi deyil, qurum müstəvisində qurulmasını məqsədəuyğun hesab edirəm."

ATİB İdarə Heyəti sədrinin müavini Ali İhsan Genç Azərbaycanda üzümçülük, şərabçılıq, meyvə və tərəvəz istehsalı, gülçülük kimi sahələrdə geniş potensial olduğu barədə məlumat verdi.

ATİB İdarə Heyətinin üzvü İhsan Fatoğlu Azərbaycanın kənd təsərrüfatı sahəsindəki perspektivlər barədə ətraflı məlumat verdi. O, Qəbələdə istehsal edilən fındığın həm qabıqlı, həm də qabıqsız formada ixrac edilməsi, Rusiya bazarında Azərbaycan şərabına ehtiyacın artması haqqında danışdı, dünyanın ən keyfiyyətli narının Azərbaycanda yetişdirildiyini tədbir iştirakçılarının nəzərinə çatdırdı.

Görüşün sonunda Cengiz Gül dəvətə görə ATİB-ə təşəkkürünü ifadə etdi və DEİK adından xatirə hədiyyəsini Cemal Yangına təqdim etdi.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**